# QƏRBİ AVROPA KLAVİR VƏ AZƏRBAYCAN MUSİQİSİNDƏ ORNAMENTİKANIN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Günel Bəkirova**
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı
**Email: gunel.bakirova.88@mail.ru**



Azərbaycan musiqisində melizmatika və Qərbi Azərbaycan musiqisində ornamentikanın oxşar və fərqli xüsusiyyətlərindən danışarkən, iki fərqli musiqi mədəniyyətindən söz açmış oluruq. Belə ki, ölkəmiz Şərq və Qərbin qovşağında yerləşdiyindən həm Şərq və həm də Qərb mədəniyyətinin təsiri altında unikal bir mədəniyyət formalaşdırmışdır. Coğrafi şərait, din, mədəniyyət, təbii sərvətlərin zənginliyi burada yaşayan insanların bədii təfəkkürünü cilalamış, milli simasını müəyyən etmişdir.

Şərq mədəniyyətinin bir parçası kimi Azərbaycan musiqisindəki melizmlər, Qərbi Avropa klavir musiqisində ornamentikanın tədqiqat predmeti olması və onların oxşar və fərqli xüsusiyyətlərinin aşkarlanması iki fərqli mədəniyyətin qarşılıqlı əlaqəsini, dialoqunu, bir-birinə təsirinin öyrənilməsi məsələsini önə çıxarır. Qarşıya qoyulan məsələ öz spesifik xüsusiyyətləri olan düşüncə tipini və ifadə vasitələrini müəyyənləşdirir.

Azərbaycan musiqisinə xas spesifik xüsusiyyətlər vardır ki, bu tamamilə Avropa musiqi düşüncəsindən fərqlənir. Məhz musiqimizin özünəməxsus qanunauyğunluqları istifadə olunan melizmatikanın həmin qanunauyğunluqlara əsaslanmasını şərtləndirən ən böyük amildir. Bu amil Azərbaycan və Qərbi Avropa klavir musiqisindəki fərqliliyin ən başlıca səbəbidir.

Qərb musiqisindən fərqli olaraq Azərbaycan musiqisi lad üzərində qurulur və musiqimizdə istifadə olunan melizmatika ladın qanunlarına əsaslanır. Bu baxımdan Azərbaycan musiqisində ornamentallıq prinsiplərini araşdırarkən məqam lad nəzəriyyəsini də vurğulamaq lazımdır. Lad Azərbaycan musiqisinin əsası və dayağıdır. Hər bir ladın öz pillələri vardır ki, lad daxilində baş verən xromatizm, alterasiya, istifadə olunan melizmlər bu pillələrə əsaslanır. Muğam ifa edilərkən və ya hər hansı bir mahnı ifa olunarkən melizmlər üzərində qurulduğu ladın verilmiş pillələrinə əsaslanır. Ona görə hər bir ladın istinad pərdələrini, alterasiya və xromatizm pərdələrini müəyyənləşdirmək Azərbaycan musiqisində melizmlərin qurulması prinsiplərinin araşdırılması baxımından çox vacibdir.

Azərbaycan incəsənətinin bir fenomeni kimi ornamentallıq da musiqimizin təşkil olunma prinsiplərindən biridir. Onun improvizə təbiətli olması melizmlərin istifadəsinə daha böyük imkanlar açır. Əlbəttə, ifaçıya bir qədər sərbəstlik verir. Lakin təbii olaraq melizmlərin istifadəsi kor-koranə deyil, müəyyən qaydalar əsasında ifa edilir. Görkəmli musiqişünas alim M.S.İsmayılovun təbiri ilə desək, melizmlər kortəbii surətdə əmələ gəlmir, “bu işdə hər ladın özünəməxsus qanunauyğunluqları vardır” [6, s.31]. Melizmlər ifa olunarkən məhz alterasiya pərdələrinə istinad edir və bu Azərbaycan musiqisində melizmlərin ifasının əsas prinsipi və qaydasıdır. Bu zaman istinad pərdələrinin də rolunu xüsusi vurğulamaq lazımdır.

Bu baxımdan Azərbaycan musiqisində melizmlər başlıca olaraq ladda olan alterasiya və xromatizmin sayəsində əmələ gəlir. Alterasiyanın əmələ gəlmə səbəbləri müxtəlifdir. Onlar həm bizim musiqimizə xas “şirinliyi” yaratmaq, yaxud digər bir lada keçməkdən ötrü istifadə olunur. Məqam pillələrində alterasiya məsələsi M.S.İsmayılovun tədqiqat işinin əsas məqsədidir, musiqidə məqam pillələrində olan dəyişiklikləri dərindən araşdırmış və sistemləşdirmişdir. Azərbaycan musiqisində olan pərdələrin yarım ton zilləşmə və bəmləşməsi hadisəsinin Qərb musiqisində də mövcudluğunu və bunun “major-minor sistemində VI–VII pərdələrin yarım ton yüksəlib, yarım ton alçalması ilə onların harmonik və melodik şəkillərini yaratdığını” [6, s.31] yazır.

Qeyd etdiyimiz kimi, xalq melodiyalarında əmələ gələn alterasiya həmçinin melizmlərlə də bağlıdır. Azərbaycan xalq musiqisinin qurulduğu yeddi əsas və üç əlavə məqamlar onların natural halıdır. Səslənmədə "şirinlik" yaranması üçün xeyli dərəcədə əlavə səslərlə istifadə olunur ki, buraya əsas alterasiya pərdələri ilə bərabər, xromatik səslərdən də daxildir. Melizmlərin ladın əsas alterasiya pərdələri əsasında qurulması prinsipi ilə yanaşı bəzən digər vasitələrə də rast gəlinir. Bu zaman əsas alterasiya pərdələri ilə yanaşı, bəzən digər pərdələr də alterasiyaya uğrayır. Lakin biz bu alterasiyaları əsas alterasiya pərdələri kimi qəbul etməməliyik. Bu haqda İ.Şıxəliyev belə vurğulayır: "Melizmlərin istifadəsi zamanı müəyyən pərdələr alterasiyaya uğrayır ki, bu alterasiyaları ladın əsas alterasiya pərdələri kimi qeyd etmək məqbul sayılmaz. Çünki, əgər xalq musiqisində istifadə olunan melizmlərin yaratdığı bütün alterasiyalı səsləri nəzərə alsaq, onda biz ladın bütün pərdələrinin alterasiyasını qeyd etməliyik" [6, s.31]. Musiqimizdə məqamların xromatikləşməsi xüsusi bir əhəmiyyətə malikdir. Onu da qeyd etmək lazımdır ki, Ü.Hacıbəyli özünün "Azərbaycan xalq musiqisinin əsasları" adlı kitabında xromatik səslər mövzusuna da toxunmuşdur. Onu olduğu kimi təqdim edirik: "Xalq musiqi üslubu xromatik hərəkətə çox məhdud ölçüdə, o da yalnız «Rast», «Şur» və «Segah» kimi ladlarda imkan verir".



Yuxarıda vurğuladığımız kimi melizmlərin istifadə yeri çox vaxt məqamın alterasiya pillələri üzərində qurulur. Lakin melizmlər ornamentikanın, yəni bəzək vurma sənətinin yalnız bir hissəsidir. Ornamentika dedikdə bura melizmlərdən başqa, sekvensiyalar, ostinato, fiorotura, musiqi fiqurasiyaları və başqaları daxildir. Onlar mətndə öz yerini tutaraq musiqi mətnini ornamentallaşdırır. Azərbaycan musiqisində də Qərbi Avropa musiqi kimi bəzəklər onun ifadə vasitələrindən biridir.

Qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olar ki, Azərbaycan musiqisində melizmlərin öz istifadə yeri vardır. Hər bir musiqiçi ifa zamanı bəzəklərdən lad nəzəriyyəsinə gör əsaslanır. Bu da onu Qərb musiqisindən fərqləndirir. Qərb musiqisində də keçici səslər, sabit səslərin qeyri-sabit səslərə həlli prinsipi mövcuddur. Ancaq başlıcası ona görə ki, major-minor sistemindən fərqli olaraq burada ladların, həmçinin ladlarda melizmlərin istinad pərdələrinin çoxluğu musiqimizin ornamental təbiətinin zənginliyinin bir daha təsdiqidir. Azərbaycan musiqisi ornamental təbiətlidir ki, bu da millətin ornamental düşüncə tərzini əks etdirir.

Ümumiyyətlə tarixə nəzər salsaq, Avropa musiqisi istər instrumental olsun, istərsə də vokal (və ya başqa janrlar) daim inkişafdadır. İlk növbədə not yazı sisteminin formalaşması Avropa musiqi tarixində ən böyük nailiyyət hesab olunur. Not yazısının kəşfi musiqi mətnlərinin reqlamentləşdirilməsinə gətirib çıxardı və not mətnindən daha gələcəkdə də istifadəni təmin elədi. Beləliklə, improvizə sənəti tarixə qovuşmuş oldu.

Azərbaycan musiqisinə diqqət yetirdikdə, tamamilə başqa bir mənzərənin şahidi oluruq. Onu Qərbi Avropa musiqisindən fərqləndirən başlıca cəhətlərdən biri də Azərbaycan musiqisində şifahi ənənəli musiqi, şifahi ənənəli professional musiqi və bəstəkar musiqisinin mövcudluğunu saxlamasıdır. Şərq musiqisi, o cümlədən Azərbaycanda not işarələrinin mövcudluğuna ehtiyac duymurdular və musiqi şifahi şəkildə ötürülürdü. Düzdür, bəzən musiqiçilər bəzi not yazı sistemlərini icad etsələr də, onun istifadəsinə ehtiyac duyulmurdu. Ona görə də nota fiksasiyanın olmaması musiqimizin improvizə təbiətini qoruyub saxlayır. İmprovizəlilik, virtuozluq özünəxas xüsusiyyət kimi şifahi ənənəli Azərbaycan musiqisini xarakterizə edən cəhətlərdən biridir. Sanki musiqi materialının ötürülmə vasitələrindən biridir. Bu zaman sərbəst ornamentika, melizmlərdən istifadə olunur. Azərbaycan musiqisi bu keyfiyyətini indi də qoruyub saxlamaqdadır.

Qərbi Avropa klavir musiqisində ornamentika ilə Azərbaycan musiqisində istifadə olunan bəzəkləri oynadığı rol baxımından aşağıdakı kimi dəyərləndirmək mümkündür:

1) bədii
2) konstruktiv
3) estetik

Digər tərəfdən, oxşarlıqların qeyd olunması da çox maraqlı haldır. Azərbaycan musiqisində ornamentika özünü belə göstərir.

**1.** *Əvvəlcə bağlayıcı mövqedə təqdim edilə bilər.*

**2.** *Burada ən çox istifadə olunan ornamentika növlərindən biri sekvensiyalardır. Sekvensiyalar hər hansı bir motivin təkrarıdır.*

**3.** *Digər ornamentallaşdırma növü təkrarçılıq və variantlılıqdır*

**4.** *Ornamentallaşdırmanın digər bir yolu isə motivin oktava aşağı və ya yuxarı səslənməsidir.*

**5.** *Həmçinin musiqi motivinin başqa bir məqamda təzahürünü tapmasıdır.*

**6.** *Hər hansı bir motiv ritmik dəyişikliyə uğraya bilər. Burada aksent və səs yüksəkliyi dəyişilsə də tonallığın qalmasıdır.*

**7.** *Müəyyən ritm hər hansı bir motivdə olduğu kimi qalır və digər fərqli melodik materiallara qoşulur.*

**8.** *Həmçinin ilkin melodik xətti və ya təkrarları daha da mürəkkəbləşdirən melodik əlavələrdən istifadə edilə bilər.*

**Bunlardan bəziləri Qərbi Avropa musiqisində istifadə olunan bəzəklərdir:**

**a.** *Notların təkrarlanması: Bu hər hansı bir səsin vokal və instrumental ifaçı tərəfindən dəfələrlə saxlanılmasıdır.*

**b.** *Forşlaqlar: Forşlaq tək və ya cüt halda hər hansı bir melodik tondan əvvəl səslənir.*

**c.** *Sürüşmə: Digər bir ornamentika növü isə sürüşmə, yəni qlissandodur.*

**d.** *Appoggiatura: Appoggiatura Qərb musiqisindəki kimidir.*

**e.** *Mordent: Mordent əsasən üç səsdən ibarətdir. Qərb musiqisində olduğu kimi, aşağı səsdən də başlaya bilər və aşağı mordent adlanır.*

**f.** *Trel: Trel verilən not ilə qonşu yuxarı və ya aşağı səsin təkrarlanmasıdır.*

**g.** *Vibrato və ya tremolo: Müəyyən müddət ərzində bir səsin təkrarlanmasıdır.*

**k.** *Qrupetto: Bu, Qərb musiqisində olduğu kimi dörd və ya beş səsdən ibarət*

*olur: yuxarı ton, əsas ton, aşağı ton və əsas tona qayıdış. Qrupettonun digər bir növü isə aşağı səsdən başlayır.*

**m.** *Sərbəst ornamentika. Bu ornamentika növü isə sırf imrpovizə prosesi ilə bağlıdır. Sərbəst ornamentika adlanır. İfa prosesi ilə əlaqəli olur.*

Azərbaycan musiqi mədəniyyəti o qədər zəngindir ki, Qərbi Avropa klavir musiqisində olduğu kimi melizmlərin ekvivalent adları vardır. Bu bir daha ornamentikanın musiqimizin bir ifadə vasitəsi olduğunu göstərir. Azərbaycan xalq musiqisi dəfələrlə qeyd etdiyimiz kimi, ornamentika, o cümlədən melizmlərlə zəngindir. Burada bəzən melodik fiqurasiyaların Azərbaycan xalq musiqisində öz adları ilə istifadə olunur. Həmin terminlər Azərbaycan xalq musiqisinin dərin ənənələrə və qədim tarixə malikliyinin bariz göstəricisidir.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan musiqisində melizmatika və Qərbi Avropa klavir musiqisində ornamentikanın oxşar və fərqli cəhətlərini araşdıran zaman qeyd etmək lazımdır ki, fərqlilik və oxşarlıq burada paralel şəkildə inkişaf edir. Sadəcə olaraq, musiqimizdə və Qərbi Avropa klavir musiqisində onları fərqli edən hər birinin öz qanunauyğunluqlarıdır - musiqi dilinin, musiqi sintaksisinin, musiqi strukturunun, musiqi düşüncə tərzinin fərqliliyidir. Bilirik ki, sekvensiya eyni musiqi parçasının fərqli pillələrdə təkrarıdır. Bu, Qərbi Avropa klavir musiqisində və Azərbaycan musiqisində ümumi qəbul olunmuş bir qanundur. Ancaq onları ayıran hər bir xalqın musiqi strukturundakı fərqlilikdir. ❖

**Ədəbiyyat:**

1. Bədəlbəyli Ə. İzahlı monoqrafik musiqi lüğəti. Bakı, Elm. 1969, 245 s.
2. Bədəlbəyli Ə. Musiqi terminləri lüğəti. Bakı, 1956. 47 s.
3. Əzimli F. Azərbaycan xalq musiqisinin qısa lüğəti. Bakı, Hərbi nəşriyyat. 2000, 132 s.
4. Hacıbəyli Ü. Ensiklopediya.
5. Hüseynova M.T. Müasir və bəzi arxaik musiqi terminləri lüğəti. B.: Sabah. 2003, 54 s.
6. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. Bakı. Elm 1991. 224 s.
7. İzahlı muğam lüğəti. AMEA Folklor İnstitutu. B.: OLNPKT.2015, 212 s.
8. İzahlı muğam lüğəti. B.: Ü.Hacıbəyli adına BMA .2013, 117 s.
9. Nəcəfzadə A. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. B.: 2004. 224 s.
10. Səfərova Z. Qədim Azərbaycan musiqi terminləri lüğəti. B.: Təbriz. 1997, 53 s.

**Резюме**

Гюнель Бекирова,
докторант Бакинской Музыкальной Академий имени У.Гаджибейли

ОСОБЕННОСТИ ОРНАМЕНТИКИ В ЗАПАДНО-ЕВРОПЕЙСКОЙ КЛАВИРНОЙ И АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКЕ

В статье рассматриваются особенности орнаментации в Западноевропейской клавирной и азербайджанской музыке. Прежде всего, были кратко уточнены принципы орнаментов в азербайджанской музыке и места их употребления, а также выяснены сходные и специфические особенности азербайджанской и европейской клавирной музыки. В статье также представлена терминология украшений в азербайджанской музыке.

**Ключевые слова:** азербайджанская музыка, западно-европейская клавирная музыка, орнаменты, украшения, стиль, структура.

**Summary**

Gunel Bakirova
Doctorate of Baku Music Academy

FEATURES OF ORNAMENTATION IN WESTERN EUROPEAN CLAVIER AND AZERBAIJANI MUSIC

The article focuses on the specific features of ornamentation in Western-European clavier and Azerbaijani music. First of all, the principles of setting up ornaments in Azerbaijani music and their places of use have been briefly clarified and was clarified with similar and specific features of Azerbaijan and European clavier music. The article also presents the terminology of embellishments in Azerbaijani music.

**Key words:** Azerbaijani music, Western European clavier music, ornaments, embellishments, style, structure.